**“Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 avqust tarixli 809 nömrəli Fərmanının 2.3.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 dekabr 2019-cu il
№ 505

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 27 dekabr tarixli 505 nömrəli Qərarı
ilə
**təsdiq edilmişdir.**

**Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi**

1. Aqrar sığorta predmetləri üzrə risklərin tərkibi aşağıdakılardır:

1.1. təbii fəlakətlər:

1.1.1. zəlzələ;

1.1.2. torpaq sürüşməsi;

1.1.3. qasırğa;

1.1.4. fırtına;

1.1.5. dolu;

*1.1.6. sel və ya subasma;*

*1.1.7. leysan;*

*1.1.8. ildırım;*

*1.1.9. şaxtavurma (donvurma);*

*1.1.10. normadan artıq yağan qar yağıntıları;*[1]

1.2. yanğınlar;

1.3. bitki xəstəlikləri və zərərvericiləri;

1.4. yoluxucu xəstəlik və zəhərlənmələr:

1.4.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 mart tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baytarlıq sahəsində profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşdirilən heyvanların xüsusi təhlükəli xəstəliklərinin siyahısı"na və 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bir sıra karantin və xüsusi təhlükəli yoluxucu xəstəliklər baş verdikdə, həmin xəstəliklərin ləğv edilməsi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi Qaydaları"nda göstərilmiş karantin və xüsusi təhlükəli yoluxucu (ekzotik) xəstəliklərin siyahısına daxil olan xəstəliklər istisna olmaqla, digər yoluxucu heyvan xəstəlikləri nəticəsində ölüm;

1.4.2. ilan və ya həşərat sancması nəticəsində ölüm;

1.4.3. zəhərli otlar və yemlərdən zəhərlənmə nəticəsində ölüm;

1.4.4. kütləvi zəhərlənmələr nəticəsində ölüm;

*1.4.5. kimyəvi maddələrin təsirindən zəhərlənmə nəticəsində ölüm;*

1.5. vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu;

1.6. üçüncü şəxslərin hərəkətləri.

2. Hər il bu siyahı ilə müəyyən edilmiş risklərin sırasından seçilən və təminat verilməsi nəzərdə tutulan risklər üzrə sığorta məhsulları Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində dərc edilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 dekabr 2021-ci il tarixli **397** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 dekabr 2021-ci il, № 284, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1521)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 21 dekabr 2021-ci il tarixli **397** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 dekabr 2021-ci il, № 284, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1521)** ilə "Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi"nə yeni məzmunda 1.1.6-1.1.10-cu və 1.4.5-ci yarımbəndlər əlavə edilmişdir.